Azərbaycan Respublikası Prezidentinin
19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR.

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDUNUN VALYUTA VƏSAİTİNİN SAXLANILMASI, YERLƏŞDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİ HAQQINDA QAYDALAR

***Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2001-ci il tarixli 607 nömrəli, 1 mart 2005-ci il tarixli 202 nömrəli, 10 fevral 2010-cu il tarixli 216 nömrəli, 27 oktyabr 2011- ci il tarixli 519 nömrəli, 12 may 2017-ci il tarixli 1376 nömrəli,28 dekabr 2018ci il tarixli 450 nömrəli və 30 dekabr 2020-ci il tarixli Fərmanlarına əsasən edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla***

## 1. ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Neft Fondu haqqında Əsasnamə"yə uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra - Neft Fondu) valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi qaydalarını müəyyən edir.

1.2. Neft Fondunun valyuta vəsaitinin bu Qaydalara uyğun olaraq idarə edilməsi Neft Fondunun valyuta vəsaitinin təhlükəsiz saxlanılması və səmərəli idarəetmə yolu ilə investisiya gəliri əldə etməklə davamlı artırılması məqsədlərini daşıyır.

1.3. Bu Qaydaların məqsədləri üçün Neft Fondunun valyuta vəsaiti (Neft Fondunun investisiya portfeli) dedikdə, Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı) və Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər smetası çərçivəsində təsdiq edilmiş xərclərin aparılması üçün konvertasiya edilərək manat hesablarına köçürülmüş vəsait istisna olmaqla, xarici valyutada ifadə olunmuş vəsait nəzərdə tutulur. İnvestisiya portfelinin məcmu dəyəri Neft Fondunun investisiya portfelinə daxil olan aktivlərin aylıq olaraq yenidən qiymətləndirilməsi əsasında müəyyən edilir.

## 2. NEFT FONDUNUN VALYUTA VƏSAİTİNİN SAXLANILMASI

### 2.1. Neft Fondunun valyuta vəsaitinin saxlanılmasının təşkili

2.1.1. Azərbaycan Respublikasında Neft Fondunun valyuta vəsaiti üzrə hesablaşma hesabları yalnız Azərbaycan Respublikasının Mərkəzi Bankında açılır.

2.1.2. Azərbaycan Respublikasının hüdudlarından kənarda (xaricində) Neft Fondunun valyuta vəsaiti üzrə hesablaşma hesabları Standard ənd Purz (Standart & Poor’s), Mudiz (Moody’s) və Fiç (Fitch) beynəlxalq reytinq agentliklərinin aşağıda göstərilən uzunmüddətli öhdəliklər üzrə kredit reytinqindən aşağı olmayan reytinqə malik olan banklarda açıla bilər:

"A-" - Standard ənd Purz, Fiç
"A3" – Mudiz

Neft Fondunun valyuta hesabları üzrə hesablaşma hesablarının açıldığı bankların uzunmüddətli öhdəliklər üzrə kredit reytinqi "A-" (Standart ənd Purz, Fiç) və ya "A3" (Mudiz) kredit reytinqi dərəcəsindən də aşağı düşdükdə Neft Fondu ağlabatan müddət ərzində bu Qaydaların 2.1.2-ci yarımbəndinin birinci abzasında müəyyən edilmiş uzunmüddətli öhdəliklər üzrə kredit reytinqinə malik olan digər banklara Fondun vəsaitinin keçirilməsini təmin edir.

2.1.3. Neft Fondunun beynəlxalq maliyyə bazarlarında tərəf müqabili uzunmüddətli öhdəliklər üzrə investisiya dərəcəli kredit reytinqindən (Standart ənd Purz və ya Fiç və ya Mudiz) aşağı olmayan reytinqə malik olan kommersiya bankları və digər maliyyə təsisatları, daxili maliyyə bazarında isə, Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 5%-dən artıq olmayan həcmdə vəsaitinin yerləşdirilməsi şərtilə, məcmu kapitalının səviyyəsinə görə ən iri və ya kredit reytinqinə görə daxili maliyyə bazarında ən etibarlı sayılan kommersiya bankları ola bilər.

2.1.4. Neft Fonduna qiymətli kağızlar üzrə depozitar xidmətləri mərkəzi (milli) banklar, milli depozit mərkəzləri və "A-" (Standard ənd Purz, Fiç) və ya "A3" (Mudiz) uzunmüddətli öhdəliklər üzrə kredit

reytinqindən aşağı olmayan reytinqə malik olan kommersiya bankları və digər maliyyə təsisatları tərəfindən göstərilə bilər.

Neft Fonduna qiymətli kağızlar üzrə depozitar xidmətlər göstərən kommersiya banklarının və ya digər maliyyə təsisatlarının uzunmüddətli öhdəliklər üzrə kredit reytinqi "A-" (Standart ənd Purz, Fiç) və ya "A3" (Mudiz) kredit reytinqi dərəcəsindən də aşağı düşdükdə Neft Fondu ağlabatan müddət ərzində bu Qaydaların 2.1.4-cü yarımbəndinin birinci abzasında müəyyən edilmiş uzunmüddətli öhdəliklər üzrə kredit reytinqinə malik olan digər kommersiya bankları və ya digər maliyyə təsisatları ilə əvəz edilməsini təmin edir.

2.1.5. Neft Fondunun valyuta vəsaitinin saxlanılması və ya yerləşdirilməsi müvafiq əqdlər əsasında həyata keçirilir.

2.1.6. Neft Fondunun valyuta vəsaitlərinin yerləşdirildiyi banklarının və ya digər maliyyə təsisatlarının və ya investisiya portfelinə daxil olan aktivlərin hər hansının kredit reytinq dərəcəsi bu Qaydalarda nəzərdə tutulan müvafiq reytinq dərəcələrindən aşağı düşdüyü hallarda və yaranmış dərəcə uyğunsuzluğu 90 təqvim günündən artıq davam etdikdə Neft Fondu ağlabatan müddət ərzində həmin valyuta vəsaitlərinin bu Qaydaların tələblərinə uyğun müvafiq reytinqə malik olan qurumlara köçürülməsini, aktivin isə portfeldən xaric etdirilməsini (satışını, dəyişdirilməsini və sairi) təmin edir.

2.1.7. Bu Qaydaların 3.3-cü bəndinin səkkizinci yarımbəndi ilə müəyyən edilən hallarda Neft Fondunun valyuta vəsaiti üzrə hesabların açıldığı, beynəlxalq maliyyə bazarlarında tərəf müqabili olan və Neft Fonduna qiymətli kağızlar üzrə depozitar xidmətləri göstərən banklar və digər maliyyə təsisatları qeyri-investisiya reytinqinə (reytinqi “B-” (Standart ənd Purz, Fiç) və ya “B3” (Mudiz) kredit reytinqindən aşağı olmamaq şərtilə) malik ola bilər.

## 3. NEFT FONDUNUN VALYUTA VƏSAİTİNİN İDARƏ EDİLMƏSİ

### 3.1. İdarəetmənin təşkili

3.1.1. Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi onun hər il üçün qəbul olunan investisiya siyasətinə uyğun olaraq həyata keçirilir.

3.1.2. Neft Fondunun investisiya siyasəti, onun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı) layihəsi çərçivəsində Neft Fondunun İcraçı direktoru tərəfindən hazırlanır və Müşahidə Şurasının rəyi ilə birlikdə təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

3.1.3. Neft Fondunun investisiya portfelinin müəyyən hissəsinin idarə edilməsinə bu sahədə ixtisaslaşan maliyyə təsisatları (bundan sonra - xarici menecerlər) cəlb edilə bilər. Xarici menecerlər üzrə tələblər və idarəetməyə verilən portfelin hissəsi Neft Fondunun investisiya siyasəti ilə müəyyən olunur.

3.1.4. Neft Fondunun investisiya siyasətində valyuta vəsaitinin idarə edilməsinin aşağıdakı ümumi prinsipləri və istiqamətləri öz əksini tapmalıdır:

- investisiya portfelinin proqnozlaşdırılan həcmi; investisiya portfelinin

- aktivlər və valyutalar üzrə tərkibi və bölgü nisbəti; investisiya portfelinin

- hədəf gəlirliliyi; investisiya portfelinin risklərinin idarə edilməsi üzrə

tələbləri;

- Neft Fondunun investisiya portfelinin idarə edilməsinə xarici menecerlər cəlb edildiyi təqdirdə, xarici menecerlərə idarəetməyə verilən investisiya portfelinin hissəsi və idarəetməyə verilmə müddəti də daxil olmaqla xarici menecerlər üzrə tələblər.

3.1.5. Neft Fondunun valyuta vəsaitinin Neft Fondunun investisiya siyasətinə və bu Qaydalara uyğun olaraq idarə edilməsi, saxlanılması və yerləşdirilməsi üzrə sərəncam verilməsi, habelə bununla bağlı Fonddaxili prosedurların müəyyən edilməsi Neft Fondunun İcraçı direktoru tərəfindən həyata keçirilir.

3.1.6. Valyuta vəsaitinin idarə edilməsi zamanı mümkün əməliyyat risklərinin minimum endirilməsi məqsədilə Neft Fondunda fəaliyyət sahələrinin və

səlahiyyətlərin bölünməsi, daxili nəzarət və səlis hesabat sistemləri tətbiq edilir.

3.1.7. Əqdlərin bağlanması, əqdlərin təsdiqi (ləğv edilməsi) və icrası, habelə bunlara dair mühasibat və hesabat üzrə əməliyyatlar Neft Fondunun birbirindən asılı olmayan struktur bölmələri və ya vəzifəli şəxsləri tərəfindən həyata keçirilir.

3.1.8. Valyuta vəsaitinin idarə edilməsi qaydalarına, o cümlədən idarəetmə zamanı səlahiyyətlərin bölünməsinə və əməliyyat prosedurlarına riayət edilməsinin təmin olunması məqsədi ilə Neft Fondunda daxili nəzarət həyata keçirilir.

3.1.9. Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi zamanı Fondun vəzifəli şəxsləri və əməkdaşlarının peşə davranışı Beynəlxalq Maliyyə Bazarları Asosiasiyasının (ACİ, Paris) Davranış Məcəlləsi ilə təsbit edilmiş etik normalara və davranış qaydalarına uyğun gəlməli, şəxsi maraqların xidməti mənafelərlə hər hansı şəkildə münaqişəyə girməsinə yol verməməlidir.

3.2. Risklərin idarə edilməsi

Neft Fondunun valyuta vəsaitinin idarə olunmasında risklərin azaldılmasının təmin olunması məqsədi ilə onların hədləri aşağıdakı prinsiplər əsasında müəyyən edilir:

kredit riskinin, yəni bir maliyyə təsisatına və (və ya) bir növ aktivə investisiya olunan məbləğin maksimum həddinin (limitinin) və onların məqbul sayılan kredit reytinqinin müəyyən olunması; likvidlik riskinin, yəni standart dövrlər üçün minimum likvidlik limitinin müəyyən edilməsi;

bazar riskinin (valyuta riski və faiz dərəcəsi riskinin), o cümlədən investisiya portfelinə daxil olan hər bir valyutanın və (və ya) bu valyutalarda ifadə olunmuş investisiya aktivlərinin portfeldəki maksimum xüsusi çəkisinin və müvafiq alt portfel üzrə ortaçəkili müddətin (durasiyanın) müəyyən edilməsi.

3.3. Valyuta vəsaitinin yerləşdirilməsi (investisiya istiqamətləri)

Bu Qaydaların 2.1-ci və 3.4-cü bəndləri ilə ziddiyyət təşkil etməmək şərtilə Neft Fondunun investisiya siyasəti ilə müvafiq alt portfellərə bölünən investisiya portfelinə aşağıdakı aktivlər daxil ola bilər:

mərkəzi (milli), kommersiya banklarındakı və digər maliyyə təsisatlarındakı depozitlər; investisiya dərəcəli kredit reytinqinə (Standard ənd Purz və ya Fiç və ya Mudiz) malik dövlətlərin, dövlət təsisatlarının, beynəlxalq maliyyə təşkilatların, kommersiya təşkilatlarının və digər qurumların borc öhdəlikləri;

dövlətlərin, dövlət təsisatlarının, beynəlxalq maliyyə təşkilatlarının, kommersiya təşkilatlarının və digər qurumların investisiya dərəcəli kredit reytinqinə (Standard ənd Purz və ya Fiç və ya Mudiz) malik borc öhdəlikləri; beynəlxalq nüfuzlu səhm bazarı indekslərinə daxil olan səhmlər;

səhmlərə, kredit reytinqinə malik olmayan borc öhdəliklərinə və daşınmaz əmlaka investisiya edən pay fondlarında, alternativ investisiya fondlarında, o cümlədən səhm(pay) üzrə müştərək investisiyalarda iştirak payları; daşınmaz əmlak; London Qiymətli Metallar Bazarı İştirakçılarının Assosiasiyası tərəfindən tətbiq edilən tələblərə uyğun olan qızıl külçələr (qızıl);

investisiya portfelinin məcmu dəyərinin 5%-dən artıq olmaması şərtilə (o cümlədən 1%-ə qədəri reytinqi “B-“ (Standard ənd Purz, Fiç) və ya “B3” (Mudiz) kredit reytinqindən aşağı olmayan, qalan hissəsi isə reytinqi “BB-“ (Standard ənd Purz, Fiç) və ya “Ba3” (Mudiz) kredit reytinqindən aşağı olmayan) qeyriinvestisiya reytinqinə malik borc öhdəlikləri və ya təsisatlardakı depozitlər.

3.4. İnvestisiya istiqamətlərinin məhdudlaşdırılması

3.4.1. Neft Fondunun valyuta vəsaiti bu Qaydaların 3.3. bəndi ilə nəzərdə tutulan investisiya aktivləri və onların əldə edilməsi (satışı) üçün zəruri əməliyyatların aparılması istisna olmaqla, başqa istiqamətlərə investisiya edilə bilməz.

3.4.2. Neft Fondunun valyuta vəsaiti idarə edilərkən törəmə maliyyə alətləri (derivativlər) tipli əməliyyatlar yalnız maliyyə bazarlarında əməliyyatların aparılması zamanı qiymətin, yaxud məzənnənin dəyişməsi ilə əlaqədar mümkün riskin minimuma endirilməsi (hecinq) və ya investisiya portfelinin valyuta tərkibinin və aktivlər strukturunun optimallaşdırılması məqsədilə həyata keçirilə bilər.

## 4. VALYUTA VƏSAİTİNİN İDARƏ EDİLMƏSİNƏ DAİR HESABAT

4.1. Neft Fondunun valyuta vəsaitinin vəziyyəti (investisiya portfelinin həcmi və strukturu) və hərəkəti (ehtimal olunan mədaxil və məxaric) barədə Neft

Fondunun Müşahidə Şurasına və Azərbaycan Respublikasının Prezidentinə rüblük məlumatlar və illik hesabat təqdim edilir.

4.2. Valyuta vəsaitinin idarə edilməsinə dair hesabat hazırlanarkən Neft Fondunun valyuta vəsaitinin yerləşdirilməsi ilə bağlı gəlirliliyi (gəlirlilik) Fondun valyuta səbəti üzrə hesablanır. Gəlirliliyin hesablanmasında məzənnə dəyişikliyindən yaranan fərq kimi hesablanan qızıl üzrə gəlirlilik nəzərə alınmır.